**AZƏRBAYCAN RESPUBLİKASI**
**MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**
**F. KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI**
**ELMİ-METODİKA ŞÖBƏSİ**



( Qılman İlkinin 100 illik yubileyi ilə əlaqədar )

# Qələmlə çarpışan mücahid ömrü

(metodik vəsait)

Bakı - 2014

**Redaktor:** Şəhla Qəmbərova - F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru

**Tərtib edəni:** Nərgiz Məcidova – F.Köçərli adına Respublika Uşaq Kitabxanası elmi-metodika şöbəsinin baş kitabxanaçısı

**Korrektor:** Məmmədli Ruhiyyə - F.Köçərli adına Respublika Uşaq Kitabxanası elmi-metodika şöbəsinin müdiri

**Qılman İlkinin 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı:**

2014-cü ildə Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi, xalq yazıçısı Qılman İlkinin (Qılman İsabala oğlu Musayevin) anadan olmasının 100 illiyi tamam olur.

Qılman İlkin ədəbiyyat tarixində özünəməxsus mövqeyə malik sənətkarlardan biri kimi uzun illər ərzində çoxcəhətli səmərəli fəaliyyət göstərmiş və zəngin Azərbaycan nəsrinin realist ənənələri zəminində yaratdığı qiymətli əsərləri ilə milli mədəniyyətin inkişafına töhfələr vermişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan ədəbiyyatının inkişafında mühüm xidmətlərini nəzərə alaraq xalq yazıçısı Qılman İlkinin 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, xalq yazıçısı Qılman İlkinin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 8 iyul 2014-cü il.**

**Tərtibçidən:**

Azərbaycan nəsrinin görkəmli nümayəndəsi sayılan Qılman İlkin bir əsrə bərabər bir ömür yaşamışdır. Yaradıcılığında tarixi keçmişimiz, dövrünün aktual problemləri, müasir gənclərin həyatı və düşüncələri əsasən öz əksini tapmışdır.

1943-cü ildə yaradıcılığa "Yaralı şahin hekayəsi ilə başlayan Qılman İlkin", "Həyat yollarında", "Hekayələr", "Üçtəpə uşaqları", "Sahil küçəsində", "Yazılı daş", "Qalada üsyan", "Şimal küləyi", "Hədiyyə", "Sərvinazım mənim","Dağlı məhəlləsi", "Ömrün oğlan çağları", "Madam Qədri", "Tayqa nağılı", "Dəniz qapısı", "Körpə siyənək", "Hərənin öz aləmi, öz taleyi", "H.Z.Tağıyev", "Bakı və bakılılar" kitablarının müəllifidir. Ssennariləri əsasında çəkilmiş "Yenilməz batalyon", "Kölgələr sürünür " filimləri tamaşaçılar tərəfindən indidə sevilərək izlənilir. Bu il ədibin 100 illik yubileyi qeyd edilir. Bu münasibətlə Prezident tərəfindən yubileyin dövlət səviyyəsində qeyd edilməsi üçün sərəncam imzalanmışdır. Bu münasibətilə keçirilən tədbirlərə kitabxanamız da qoşularaq ədibin fəaliyyətini işıqlandıran bir sıra tədbirlər həyata keçirəcəkdir.

Yubiley münasibətilə hazırladığımız bu vəsaitdə məqsədimiz yazıçını sizə daha yaxından tanıtmaqdır. Vəsait iki hissədən ibarət olub "Giriş hissə", və "Keçiriləcək tədbirlər"i əhatə edir. Giriş hissədə şairin həyat və yaradıcılığı haqqında məlumat verilir, II hissədə isə kitabxanada şairin yubileyi ilə bağlı keçirilməsi nəzərdə tutulan tədbirlər haqqında danışılır. Yazıçının xatirəsinə hazırlanan ədəbi-bədii gecədə isə onun haqqında sitatlar, yazılarından səhnələr, bədii kompozisiyalar verilmişdir.

## Həyat və yaradıcılığı

Qılman İsabala oğlu Musayev (Qılman İlkin) 1914-cü il aprel ayının 28-də Bakının Mərdəkan kəndində anadan olmuşdur. 1926-1929-cü illərdə şəhər pedaqoji texnikumunda oxumuş, 1932-1936-ci illərdə Azərbaycan Pedaqoji institutunun dil-ədəbiyyat fakültəsində ali təhsil almışdir. Qılman İlkin əmək fəaliyyətinə Xaçmaz rayonunun Əhmədoba kəndində məktəb mülәlimi kimi başlamışdır.1931-1932-ci illərdə "Gənc işçi" qəzeti redaksiyasında ədəbi işçi, 1938-ci ildən isə "Uşaqgəncnəşr" də məsləhətçi, baş redaktor və direktor vəzifələrində çalışmışdır. İkinci Dünya müharibəsində iştirak etmiş, keçmiş Sovet Ordusunun tərkibində Qafqaz cəbhəsində və İranda hərbi qəzetlərdə müxbir kimi çalışmışdır. O, bədii yaradıcılıqla yanaşı, uzun müddət mətbuat sahəsində fəaliyyət göstərərək, 1960-1963-cü illərdə "Azərbaycan" jurnalının baş redaktoru, 1967-1971-ci illərdə isə yendən Azərbaycan Dövlət Nəşriyyatında direktor vəzifələrində çalışmışdır. Müasir Azərbaycan nəsrinin tanımış nümayəndələrindən olan Qılman İlkin 1943-cü ildən etibarən ədəbi yaradıcılığa başlamışdır. O, altmış ildən artıq bir dövr ərzində çox sayda hekayə, povest və romanlar yaratmışdır. Son illər "Sən Bakını taniyırsanmı?", "Bakı və bakılılar", "Tovuz Lələyi" kitabları kütləvi tirajla onun yaradıcılğında yer almışdır. Onun ssenariləri əsasında "Azərbaycanfilm" kinostudiyasında "Yenilməz batalyon", Kölgələr sürünür" filimləri çəkilmişdir. "Cərrahlar", "Tayqa nağılı", "Əsgər müharibədən qayıdırdı", "Geriyə yol yoxdur", "Baba və nəvə" televiziya pyesləri uzun müddət mavi ekranda görtərilmiş, "Təzə şagırd" pyesi tamaşaya qoyulmuşdur. Əsərləri xarici dillərdə çap edilmiş, 30-a qədər kitabı işıq üzü görmüşdür. Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafındakı xidmətlərinə görə "Qırmızı əmək bayrağı", "İkinci dərəcəli Böyük Vətən müharibəsi" ordenləri, iki dəfə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı və medalları ilə təltif olunmuş, 1967-ci ildə Dövlət mükafatı laureatı, 1989-cu ildə "Azərbaycanın Əməkdar incəsənət xadimi", 2002-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, 2003-cü ildə "Azərbaycanın Xalq yazıçısı" fəxri adını almışdır. Qafqaz xalqları Ali Dini Şurasının "Paklıq" mükafatına layiq görülmüşdür. Qılman İlkin 2009-cu il noyabrın 6-da vəfat etmiş, II Fəxri Xiyabanda dəfn olunmuşdur.

## Keçiriləcək tədbirlər

Bu il yazıçı Qılman İlkinin anadan olmasının 100 illik yubileyi qeyd edilir. Yubileyin dövlət səviyyəsində keçirilməsi üçün möhtərəm prezidentimiz İlham Əliyevin imzaladığı sərəncama əsasən mədəniyyət ocaqlarında, mədəni-maarif müəssisələrində respublikamızın uşaqlara xidmət edən bütün kitabxanalarında bir-birindən maraqlı təntənəli şəkildə tədbirlərin keçirilməsi nəzərdə tutulub. Kitabxanada keçiriləcək tədbirlərin başlanğıcı üçün sərgilərin təşkili vacibdir. Sərgiyə şairin kitabları, onun haqqında nəşr olunmuş kitab və dövri mətbuat materialları, şairin foto-şəkilləri yerləşdirilməlidir. Sərgilərin təşkilində aşağıdakı başlıqlardan istifadə etmək olar. "Nəsrimizin klassiki", "Qələmlə çarpışan mücahid ömrü", "Yaradıcılıq yollarında", "Mənalı yaşanan ömrün zirvəsi" və s. Kitabxanalar birinci növbədə, ədib haqqında çap olunmuş ədəbiyyatın oxuculara düzgün təbliğində maraqlı olmalıdırlar. Köməkçi vasitələrdən olan biblioqrafik kataloqların da yubiley materiallarının vaxtında əks etdirilməsi də bu işdə böyük önəm daşımalıdır.

Kitabxanamızda Qılman İlkininin bədii irsinin oxuculara çatdırılması üçün əyani və şifahi təbliğatın xüsusi rolu var. Kitab sərgiləri, kitabxana plakatları, stend, albom, ədəbi-bədii əsərlərin müzakirəsi, söhbətlər, oxucu konfranslarının, biblioqrafiq icmaların keçirilməsi, disputların, ucadan oxular keçirilməsinin əhəmiyyəti olduqca böyükdür. Həmçinin yazıçının həyat və yaradıcılığından bəhs edən foto slaydların nümayişi də əhəmiyyətliidir. Keçirilən tədbirlər içərsində kitab müzakirələri xüsusi yer tutur. Çünki kitablar oxucu zövqünün baxışlarının, hisslərinin tərbiyə edilməsində qüdrətli amildir. Kitab təbliğinin ən canlı əyanı təbliğat formalarından biri isə kitab sərgiləridir.

Aşağıda Qılman İlkinin yaradıcılığına həsr olunmuş bir kitab sərgisinin nümunəsini veririk.

1. Başlıq: **Qələmlə çarpışan mücahid ömrü** -"Qılman İlkinin -100 ".
2. Sitatlar.

**Kitablar :**

1. Sən Bakını tanyırsanmı?.
2. Bakı və Bakılılar.
3. Seçilmiş əsərləri (I cild)
4. Seçilmiş əsərləri (II cild)
5. Dağlı məhəlləsi
6. Tayqa nağılı.

**Haqqında:**

1.Şükürova E. Sözə sevdalılar

## Sitatlar:

Qılman, mən sənin istedadına inanıram. Bəzi əsərlərini də oxumuşam. Ümumi mədəni səviyyən etibarilə diqqətə layiqsən. Özün də təvazökar yoldaşsan.

**Xalq yazıçısı Səməd Vurğun.**

Qılman  Musayev ədəbiyyatımızın yorulmaz mücahididir.

**Xalq şairi Süleyman Rəhimov.**

Yazıçının müvəffəqiyətindən biri, bəlkə də birincisi Bakı şəhərini, Xəzər dənizini, Abşeron kəndlərini, bağlarını yana-yana, sevə-sevə göstərməsidir. Mən inqilabdan qabaqkı Bakını görməmişəm. Bu şəhərdə yaşamamışam. Qılmanın əsərlərini oxuyandan sonra həm şəhəri, həm də hadisələrin cərəyan etdiyi şəraiti görməyə başladım.

**Xalq şairi Əli Vəliyev**

*Sevimli yazıçımız Hüseyn Abbaszadə isə Qılman İlkin yaradıcılığını “Hamıya nəsib olmayan səadət”  kimi qiymətləndirmişdir:*

“İnsan üçün uzun ömür sürmək, həm də bu dövrdə gümrah, ləyaqətlə yaşamaq, bir əsrin doqquz, on ilini arxada qoyub, sonuncu on ilini gənclərlə bir sırada addımlamaq hamıya nəsib olmayan səadətdir .

**Xalq yazıçısı, Hüseyn Abbaszadə**

Həmçinin sərginin təşkilində yazıçının həyat və yaradıcılığı haqqında  mətubatda çıxmış qəzet və jurnal məqalələrindən də istifadə edə bilərik.
















Azərbaycan ərazisinin bir hissəsi erməni işğalçılarının tapdağı altında qaldığından və müharibə təhlükəsi hələ də sovuşmadığından hərbi vətənpərvərlik tərbiyəsinə həsr olunmuş tədbirlərin keçirilməsinə kitabxanada həmişə yer verilir. Müharibə şəraitində yaşayan bir ölkədə gənc nəsilə torpağa, vətənə məhəbbət aşılanması, düşmənə nifrət hisslərinin formalaşdırılması, bu mövzuda yazılmış bədii əsərlərin təbliği ilə həyata keçirilir. Qılman İlkin yaradıcılığında da Qarabağ hadisələri ağrılı bir mövzu olmuşdur.Yazıçının bu barədə yazılmış "*İntiqam"* hekayəsi elan olunmamış Qarabağ müharibəsinin amansız nəticələrindən danışır. Bu əsər kitabxanada kitab müzakirəsinin keçirilməsi üçün düzgün seçilmiş bir əsərdir. Əsərin qəhrəmanı Xəzəngül sözügedən ərazilərdə ana bacılarımızın, oğullarımızın fəryadlarını eşidən bir obrazdır. Əsər oxuculara mənfur qonşularımızın iyrənc əməllərini, günahsız uşaqlarımızın, qocaların qadınların başına gətirdikləri hadisələri göstərən gözəl nümunədir.

Qılman İlkin yaradıcılığını kitabxanalarda təbliği zamanı oxucularımızın sevimli şairimiz haqqında olan məlumatlarını öyrənmək məqsədilə anket sorğuları hazırlamaq olar. Bunu nəzərə alaraq sorğumuzu sizlərə təqdim edirik.

1. Qılman İlkini tanıyırsınızmı?
   - Bəli
   - Xeyir

2. Yazıçnın əsəri əsasında hazırlanmış hansı filmi görmüsünüz?

   ☺ "Kölgələr sürünür" və " Yenilməz batalyon" filmləri

3.Yenilməz batalyon yazıçının hansı əsərinin motivləri əsasında çəkilmişdir?

☺ Qalada üsyan poeması

4.Qılman İlkinin hansı hekayələrini oxumusunuz?
• ______________________________________

5.Qılman ilkinin ilk hekayəsi hansı olub?
• Yaralı şahin

6. Qarabağ döyüşlərindən bəhs edən hansı hekayələrini tanıyırsınız?
• _____________________________________________________
• İntiqam
• Həsrət kədəri
• Əhd
• Hicranın gündəliyi
• Əl yaylığı
• Dərd

7.Yazıçı neçə yaşında vəfat etmişdir?
• 96

8. Yazıçının Bakının tarixindən bəhs edən kitabı hansıdır?
• Bakı və Bakılılar

9. O, hansı ədəbi mükafatın laureatı olmuşdur?
• M.F. Axundov adına ədəbi mükafat

Məktəbli oxucuların hər hansı konkret bir movzuda müfəssəl məlumat almalarına kömək etmək üçün kitabxana albomları ən yaxşı və münasib vasitə hesab edilir. Qılman İlkinin yubileyi münasibətilə hazırlanmış albomlar da yazıçını oxuculara tanıtmaq üçün bir vasitədir. Ayrı-ayrı şəxsiyyətlərin həyat və yaradıcılığına həsr edilmiş kitabxana albomunda yazıçının anadan olduğu vaxtdan ömrünün sonuna qədərki həyat və fəaliyyətini əks etdirən mətnləri, faktları, rəqəmləri, foto şəkilləri, rəsmləri xronoloji qaydada və məntiqi ardıcıllıqla verə bilərik. Yazıçının kitabları ilə oxucuları daha yaxından tanış etmək üçün kitablarınının üz qabığını skaner edilib alboma əlavə edə bilərik.

**Ədəbi bədii gecə:**

*( Səhnədə yazıçının portreti vurulur tədbirin mövzusuna uyğun Bakını əks etdirən mənzərələrlə bəzədilir. Yazıçının həyat və yaradıcılığından bəhs edən slayd nümayiş etdirilir. Slaydda iştirakçıları Qılman İlkin də daxil olmaqla Bakı haqqında yazan yazıçılar və onların əsrləri ilə tanış edə bilərik. )*

**I Aparıcı**: Hörmətli qonaqlarımız! Əziz uşaqlar! Bu il Azərbaycan nəsrinin gözəl nümayəndəsi, sanballı roman və povestlər müəllifi Qılman İlkinin 100 illik yubileyi qeyd olunur. Yubileyin dövlət səviyyəsində keçirilməsi üçün möhtərəm prezidentimiz İlham Əliyev sərəncam imzalamışdır. Sərəncama əsasən mədəniyyət ocaqlarında, mədəni-maarif müəssisələrində respublikamızın uşaqlara xidmət edən bütün kitabxanalarında bir-birindən maraqlı təntənəli şəkildə tədbirlərin keçirilməsi nəzərdə tutulub. Bu münasibətlə uşaq müəsisəsi olaraq görkəmli ədəbimizi yaxından tanımaq üçün hazırladığımız ədəbi-bədii gecədə xoş gördük sizləri.Çağdaş və gələcək nəsillərə doğma Azərbaycanımızı tanıtmaq hər birimizin borcudur. Bu işdə hərə bildiyi işi görməlidir. Sevimli yazıçımız Qılman İlkin isə Bakımızın tarixini yaşatmaq üçün bizlərə gözəl əsərlər qoyub getmişdir.

**I Aparıcı:** İlk əvvəl istərdik ki, 100 illik yubileyinə yığışdığımız ədəbiyyat mücahidimizin həyatı haqqında qısa bir məlumat verək.
Qılman İlkin (Musayev) 1914-cü-cu ildə Gözəl Bakımızın Mərdəkan kəndində anadan olub. İbtidaii təhsilini Mərdəkan kənd orta məktəbində aldıqdan sonra Bakı Pedoqoji Texnikumunu bitirmişdir.1932-ci ildən isə Azərbaycan Pedoqoji İnstitunda təhsilini davam etdirmişdir.

**I Aparıcı:** Gənclik illəri ağır represiya və müharibə illərinə düşən yazıçımız müsahibələrinin birində represiya illərini belə xatırlayırdı. "Hayıf Caviddən, Müşfiqdən, Cavaddan, Mümtazdan. Onların günahı nə idi ?

**II Aparıcı:** Vətənin dar gününün əziyyəti şair ömründən də yan keçməmişdir. İkinci dünya müharibəsi başlayan zaman, şair Mərkəzi Komitənin tapşırığı ilə Təbriz şəhərinə göndərilir. Çətin olsa da orada ərəb əlifbası ilə dərc olunan "Vətən uğrunda" qəzetində işləməyə başlayır. Müharibədən sonra

dostları Cəfər Xəndan, Osman Sarıvəlli, Ə. Məmmədxanlı və b. köməyi ilə vətənə qayıdır. Burada "Uşaqgəncnəşr"in redaktoru təyin edilir.

**I Aparıcı:** "Mayor", "Yaralı şahin", "Göy adamı" kimi hekayələri ilə yaradıcılığa başlayan Qılman İlkin yaradıcılığında əsasən insan faktorunu üstün tutan sənətkar, qələmində, insanı öyrənmək, duymaq, insanın daxili dünyasına baş vurmaq duyğuları ilə seçilir.Onun fikrincə insana mücərrəd varlıq kimi yanaşmaq düzgün deyil. İnsan canlı olduğu üçün ona münasibət də canlı olmalıdır. Bu münasibətlər onun "Tovuz lələyi", "Qoca köpək", "Təklik" əsrlərində hiss olunur.

**Aparıcı:** Yazıçının 1947-ci çapdan çıxmış Nəcəfbəy Vəzirovun uşaqlıq illərinə həsr etdiyi "Həyat yollarında" povesti yaradıcılığında xüsusi yer tutur. Povest Nəcəfbəy Vəzirovun gimnaziyada təhsil aldığı dövrlərdən, uşaqlıq həyatında oxuduğu illərdən bəhs edən gözəl bir əsərdir.Gəlin indidə əsərdən götürülmüş yazıçının gimnaziyada oxuduğu illərdən bəhs edən parçaya tamaşa edək:

( Səhnə məktəbi xatırladan bir şəkildə qurulur.Uşaqlar səhnəyə yığışır.Tənəffüsdə dəhlizdə gəzişillər. Balaca Nəcəf isə xüsusi gimnaziya geyimi olmadığından yoldaşlarından seçilıir. Direktor onu dəhlizdə görüb yad uşaq zənn edir və sorğu-suala tutur:)

**Direktor:** Sən burda neynirsən?

*(Balaca Nəcəf özünü itirir nə cavab verəcəyini bilmir)*

**Nəcəf:** Mən burada oxuyuram, ikinci sinifdəyəm

(*Direktor onu başdan ayağa süzür)*

**Direktor:** Adın nədir? – deyə acıqlı soruşur.

**Nəcəf:** Nəcəf Vəzirov.

**Direktor:** Hirsli-hirsli deyir – Gəl dalımca.

Onlar direktorun otağına keçirlər, direktor qəzəblə: bu nədir sənin gimnaziya geyimin o birisi uşaqlardan niyə fərqlənir ? Nəcəf onun sualını başa düşmür )

**Nəcəf** : Heç bir şey olmayıb mən sizin sualınızı başa düşmədim.

**Direktor:** Bir aya yaxındır gimnaziyada dərs başlayıb, bəs sənin gimnaziya paltarın hanı?

**Nəcəf:** Tikdirəcəyəm.

**Direktor:** Tez tikdirmək lazımdır. Sənə beş gün vaxt verirəm.

**Aparıcı:** Nəcəf evdə atasının yoxsul və xəstə olduğunu bildirmək istədi, lakin demədi. Qorxdu ki, onu böyük əziyyətlə daxil olduğu gimnaziyadan çıxardarlar.

**Aparıcı:** Direktorun təyin etdiyi vaxt yaxınlaşırdı. Nəcəf bütün gecələri yatmır, fikirləşirdi. Heç kəsə ümidi gəlmirdi. Nəcəf axır ki direktorun dediklərini xalasına danışdı. Xalası Nəcəfi dinlədikdən sonra onu bir qohumunun yanına aparır və gəlişinin məqsədini ona ətraflı danışır. Əmənulla ona qulaq asdıqdan sonra üzünü Nəcəfə tutur:

**Əmənulla:** Bala saymaq bilirsən?

**Nəcəf:** Bilirəm.

**Əmənulla:** Neçəyə qədər saya bilirsən?

**Nəcəf:** Milyona qədər.

**Aparıcı**: Əmənulla Nəcəfin xalasına tərəf üzünü tutub düzələr deyir ona bir iş taparam, dərsdən sonra qəpik-quruş qazanar. Bu sözləri eşidən Nəcəfin gözləri güldü. Çünki onun ən böyük arzusu sevdiyi, təhsil aldığı məktəbini itirməmək idi.

*İştirakçılar tamaşaçılarla sağollaşıb, səhnədən ayrılırlar.*

**Aparıcı:** Qələmə aldığı "Sən köhnə Bakını tanıyırsanmı?" adlı kitabçasında isə yazıçı sirli soraqlı Bakının tarixi keçmişindən yazmışdır. Gəlin müxtəlif ölkələrin millət və xalqlarının tarixini yada salaq. Paris fransızlar, London ingilislər, Madrid ispanlar,Roma italyanlar, İstanbul türklər, Moskva ruslar üçün əziz olduğu kimi Bakı da bizim üçün əziz və qiymətlidir. Yaşadığımız şəhərin tarixi haqqında bilmək, onu gələcək nəsillərə çatdırmaq bizim üzərimizə düşən ən böyük vəzifələrdən biridir.

**II Aparıcı:** Müəllifin "Bakının adı unudulmuş tarixi yerlərini öyrənmək işində bu kiçik məlumat kitabçası güman edirəm ki, hər bir oxucunun köməyinə çata bilər" fikri ilə başlyan bu kitabça cəmi 66 səhifədən ibarət olsada Bakının adı unudulmuş bəzi tarixi yerlərini tanımaq üçün oxucuya daha dolğun məlumatlar verir. Son zamanların məhsul olan " Bakı və Bakılılar" nəşri də bu silsilədəndir.

**IAparıcı:** Respublikamızın paytaxtı Bakı keçmişdə necə olub? Sevdiyimiz, fəxr etdiyimiz bu gözəl şəhər əsrlər boyu nə kimi fırtınalardan, keşməkeşlərdən keçib, bugünkü xoşbəxt

günlərə necə qovuşmuşdur?

**II Aparıcı:** Mərd oğulları onu necə qorumuşlar, qədim abidələrini necə qoruyub saxlamışlar. Bu adamlar özləri necə yaşamışlar? Kitab bizə bu suallara cavab tapmağa bir köməkçidir.

(*Bakı haqqında mahnı səslənir. Musiqi sədaları altında oxucular səhnəyə gəlir)*

**I Oxucu:** Heç bilirsən Bakı hansı əsrdə yaranıb?

**II Oxucu:** Onun yaranma tarixi çox qədim dövrlərə gedib çıxır. Ona görə də bu qədim şəhərin yaranma tarixi məlum deyil. Hətta tarixi mənbələrdə Bakının tarixini Qaytara, Albaniya, Baruka ilə bağlayırlar. V-VI əsr mənbələrdə isə onu adı "Bakuh", "Baku", "Bakuyə" kimi çəkilir. Rus mənbələrində"Vasi", "Vasiyə", farslarda isə "Badkubə kimi adı çəkilir".

**III Oxucu:** Qədimdən daş hasara alınmış içəri şəhər əhalisi çox olmasada ildən ilə artırdı. Əhali artdıqca sıxlıq əmələ gəldiyindən əhali qala divarlarından kənara köçürülməyə başlandı. Güllü çiçəkli qalanın ətrafı " Bayır şəhər" adlanmağa başladı.

**I Oxucu:** İndiki şəhərimizin mərkəzi küçələrində yerləşən Azad qadın heykəlini tanıyırsınızmı? Məşhur indiki Azad qadın heykəlindən başlayaraq üzü Kolxoz bazarına qədər uzanan ərazini isə o vaxtlar Kərpicbasan məhəlləsi əhatə edirdi.Vaxtıılə burada çoxlu daş karxanaları var idi. XX əsrin əvvələrində isə bu karxanalar tamamilə şəhərin kənarına köçürülmüşdü.

**II Oxucu:** İndi "28 may" kimi tanıdığımız ərazidə isə 1884-cü ildə dəmiryol vağzalı açılmışdır. Bura əvvəlcə böyük bir üzumlük imiş.

**III Oxucu:** Sovet rejimində yaşasaqda Bakı əhalisi üçün islam dini dəyərlərinin qorunmasına böyük əhəmiyyət verilirdi. 1861-ci ildə Bakı mərkəz olandan sonra Bakıda olan məscidlər bunlar oldu:

Məhəmmədiyə məscidi
Cümə məscidi
Hacı Cəbrayıl məscidi
Hüseynqulu məscidi
Məmmədəli məscidi
Kərbəlayi Əbdülhüseyn məscidi

Şah məscidi
Hacı Cavad məscidi
Məmmədyar məscidi
Seyidlər məscidi
Şirvanlı məscidi
Hacı İmaməli məscidi
Təzə Pir Məscidi
Hacı Banı məscidi
Qasım bəy məscidi
Yaşıl Günbəz məscidi
İttifaq məscidi (Əjdərbəy məscidi)
Nəzər məscidi
Hacı Qurban məscidi
Çənbərəkənd məscidi
Dağlı məscidi
Hacı Qeyib məscidi
Hacı Hüseyn məscidi

**Aparıcı:** Qədim Bakının məşhur simalarından biri də Bakı pəhləvanları sayılırdı.
Kitabda haqqında söhbət açılmış məşhur Altıaylıq ləqəbi ilə
Tanınmış Bakı pəhləvanını tanımaq maraqlı olardı.

**I Aparıcı:** Bakının Maştağa kəndində Əbdüləli adında pəhlivan olub. O, çox güclü, qüvvətli idi. Anadan altıaylığında doğulduğu üçün altıaylıq pəhləvan deyə çağırıblar. O Bakının kəndlərində və içərişəhərdə zorxanalarda hələ uşaqkən məşq edərdi.”1903-cü ildə Kərbəla ziyarətindən qayıdan pəhləvan Tehranda düşərkən eşidir ki, şahın pəhləvanları sarayda güləşəcəklər. Kim güləşmək istəyir gəlsin. Altıaylıq yoldaşları ilə birgə şahın pəhləvanları ilə güləşməyi qərara alır.

*(Səhnə qurulur, pəhləvanlar, dostları və şah səhnəyə gəlirlər. Pəhlivanlar güləşirlər)*

***Şahın pəhləvanı:** (* Lovğalanaraq) – Bu saat payını alacaqsan

*( Güləşirlər. Şahın pəhləvanı çox güc verir, lakin Altıaylıq pəhlivana bata bilmir. Tamaşa edən şah qəzəblə deyir:)*

**Şah:** Bu olmadı təzədən güləşin.

*(Təzədən güləşirlər, Bu dəfə Altıaylıq onun kürəyini yerə vurur. Altaylıq üzünü şaha tərəf çevirib deyir)*

**Altıylıq pəhləvan:** Şahım bu dəfədəmi olmadı?

*(Şah onu alqışlayır və ona bir ovuc quru əncir uzadır)*

**Şah:** Al qoçaq ye, qollarına qüvvət gəlsin.

**Altıaylıq:** Şahım mən Bakıdanam.Üç ay yayı bu əncirin yaşını yeyirəm, qurusu nəyimə lazım. Sonra şah onu saraya dəvət edir.

*Səhnəcik sona çatır. Uşaqlar baş əyib səhnədən ayrılırlar.*

**Aparıcı:** Demokratik Respublika dövründə mətbuatımızdan söhbət düşərkən bu dövrlərdə müxtəlif partiya və təşkilatların tabeliyində olan qəzet və jurnalların bir neçə nömrəsi çıxdıqdan sonra bağlanırdı, hansıki onların ətrafında Əli bəy Hüseynzadə, F. Köçərli, Ə. Cavad, H. Cavid, S. Hüseyn və b. birləşmişdi. Gəlin bu nəşirlərimiz haqqında olan məlumatlarla birlikdə tanış olaq.

*(Səhnəyə hər qəzetin adından danışmaq üçün oxucular gəlir.)*

**İttifaqi mütəllimin:** Bakı türk tələbələri təşkilatının orqanı idi. İlk nömrəsi 1917- ci il mart ayının 6- da çıxmışdır. Həmin ilin may ayında çağırılmış Ümumu Qafqaz tələbələrinn qurultayı təzə seçilmiş Mərkəzi Komitəyə tapşırır ki, yeni bir qəzet buraxsın. Buna görə də "İttifaqi mütəllimin" öz fəaliyyətini dayandırıb yerini **"Gənclər sədası"** adlı qəzetə verir. Qəzet Qafqazda yaşayan tələbələr haqqında müntəzəm yazılar dərc edirdi.

**Zəhmət sədası:** Bu qəzetin də ömrü az olmuşdur. Tezcə çıxması ilə bağlanması bir olmuşdur.

**Müsavat:** Müsavat isə az-çox ömür sürən qəzetlərdən olmuşdur. Qəzetin devizi belə olmuşdur: **İnsanlara hürriyyət, millətlərə müsavat.** M.Ə Rəsulzadənin fəaliyyəti ilə nəşr edilən qəzet 1918-ci il Demokratik Respublika dövründə də fəaliyyət göstərmişdir.

**Əxbarı:** Qəzet fəhlə, əsgər və matroslar şurasının orqanı olub. 1918-ci il mart hadisələrindən sonra çap edilən qəzetin fəaliyyət dövrü çox az olmuşdur.

**İstiqlal qəzeti:** **Millət yoludur, haqq yoludur tutduğumuz yol**
**Ey haqq, yaşa, ey sevgili millət, yaşa var ol.**
misralarını deviz seçən İstiqlal qəzeti isə Müsavat

partiyasının rəsmi orqanı idi. İlk nömrəsi 1919-cu ilin fevralında çıxmış, sonuncu nömrəsi isə 1920-ci ilin 23 aprelində cixmişdır.“Fəhlə və əkinçi”, “Hürriyyət”, “Xalq sözü”, “Şeypur” və s. nəşrlərimiz də bu dövrlərdə mətbuatımızda adları şövqlə çəkilə biləcək nəşrlərdən olmuşdur.

**Aparıcı:** Qılman İlkinin yaradıcılığı Bakı və onun tarixi haqda yazılmış əsərlərlə zəngindir. Hər nəsil yaşadığı hazır bir mühitdə göz açır, onun ab-havası ilə böyüyür. Bilmir ki, onun tarixi keçmişi var. Bu günümüzü yaşatmaq üçün dünənimizi bilməliyik, onu öyrənməliyik. Bunun üçün yazılmış bu əsərlər qiymətsiz bir sərvətdir. Kitabda Bakının tarixinə, keçmişinə, çağdaş həyatına sakinlərinə nəzər yetirilir.

**Aparıcı:** Qılman İlkin nə qədər yaşlansada öz müəllimlərini də çox hörmətlə xatırlayırdı. Xatirələrinin birində müəllimi olmuş görkəmli yazıçımız Mir Cəlal haqqında yazırdı: “Müharibədən sonra pedoqoji fəaliyyətimlə yanaşı, nəşriyyat sahəsindədə çalışmalı oldum. Əvvəlcə “Uşaqgəncnəşr”də, sonra isə “Azərnəşr”də “Azərbaycan” jurnalında çalışdığım illərdə tez-tez Mir Cəlalla rastlaşmalı olurdum. Hər iki nəşriyyatda Mir Cəlalın əsərlərinin nəşr edilməsində yaxından iştirak etmişəm.1961-ciildə “Azərnəşr” də onun “İnsanlıq fəlsəfəsi” kitabı nəşr olunurdu. Kitabı vərəqləyərkən onun Şəki sesiyasında dediyi sözlər yadıma düşdü. ” Məktəblərdə mütləq insanlıq bir predmet kimi təlim olunmalıdır.”

**Aparıcı:** Öz yazdıqlarından heç vaxt razı qalmayan ədib, əlindən çıxan yazılardan razı qaldığı günü, ömrünün ən sevincli günü hesab edirdi. Özü-özünə qarşı həmişə tələbkar olmuşdu.Yazıçı əsərləri haqqında belə deyirdi: “Çapdan çıxan hər bir yeni əsərimi açıb oxumağa qorxuram.Əgər orada xoşuma gəlməyən hər hansı bir fikir və ya ifadə görsəm, özümə gələ bilmirəm.

**Aparıcı:** Bütün sənət adamları kimi yazıçı da məhəbbətə xüsusi qiymət verirdi. Müsahibələrinin birində “Həqiqi eşq insan həyatında heç vaxt qocalmayan ilahi bir qüvvədir .Bunu “Qocalar evində evlənmə” adlı hekayəmdə bildirmişəm.

**Aparıcı:** Demək olar ki, bütov bir əsrə bərabər bir ömür yaşamış Qılman İlkinin ömür yolu heç zaman hamar olmamışdır.

Yazıçı çox enişli-yoxuşlu yollar aşmış, ağrılı-acılı günlər yaşamışdır. Kiçik yaşlarından atasını itirən yazıçı özündən böyük qardaşının köməyi ilə böyüdüyündən ona kömək etməyə məcbur olur. Yazıçı Mərdəkanda Hacı Zeynalabdin Tağıyevin tikdirdiyi məktəbdə ibtidaii təhsil alır. Məktəbin dördüncü sinfində oxuyarkən müəllim onlara Hüseyn Cavidin " Öksüz Ənvər" hekayəsini oxuyur. Hekayədə atadan-anadan yetim qalan Ənvərin ağrılı həyatı təsvir olunurdu. O, öz həyatını da Ənvərin həyatına oxşadır. Onu ağlamaq tutur sinifdə bərkdən ağlamağa başlayır.Necə ki:

*Səhnə qurulur, sinif otağı, müəllim və şagirdlər. Balaca Qılman da onların Arasındadır. Müəllim şagirdlərə Hüseyn Cavidin Öksüz Ənvər hekayəsini oxuyur.*

*Balaca Qılman hekayəyə qulaq asaraq fikirə gedir. Uşaq öz həyatını Ənvərin həyatına bənzədirək onu ağlamaq tutur. Müəllimsə Qılmanı heç cür sakitləşdirə bilmir. Vəziyyəti belə görüb müəllim onu sinifdən çıxardır.*

**Müəllim:** Çıx, bayırda nə qədər istəyirsən ağla, sakitləşəndən sonra qayıdarsan.

**Aparıcı:** Zəng olur, tənəffüs vaxtı içəri girərkən sinif yoldaşları onu lağa qoymağa başlayırlar.

**Uşaqlar:** Adə, nə oldu, xortdan gördün, elə ağlayırdın?

**Aparıcı:** Həmin gün bütün günü Qılman fikirli gəzir. Ona elə gəlirdi ki, uşaqlar Öksüz Ənvərin taleyni başa düşmürlər.

**Aparıcı:** Qılman İlkin bu gün cismən özü bizi tərk etsə də, gözəl əsərlərini hər birimizə əmanət qoyub. Onun oxunan hər bir əsəri yazıçının 55 illik fəaliyyəti haqqındazəngin təsəvvür yaradır. Cəmiyyətimizin, xalqımızın borcu isə bu əsərləri yaşatmaq, gənc nəslə çatdırmaqdır.